ABAK-Az Crowe Ltd
19/20, Building 2, 2 Salyan Road,
Baku, AZ1023,
Azerbaijan Republic
Tel: +994 (12) 492 7856
Fax: +994 (12) 437 4126
E-mail: abak@crowe.az
www.crowe.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ" PUBLİK HÜQUQİ ŞƏXSİN İdarə Heyətinə

### *Şərti müsbət rəy*

Biz "İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi" PHŞ və onun törəmə müəssisələrinin (bundan sonra PHŞ) 31 dekabr 2020-ci il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətinin hesabatdan, konsolidə edilmiş məcmu gəlirlər hesabatdan, konsolidə edilmiş kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş konsolidə edilmiş maliyyə hesabatları "Şərti müsbət rəy üçün əsaslar" bölməsində göstərilən səbəblərin əhəmiyyətli olmasını nəzərə alaraq PHŞ-in 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

### *Şərti rəy üçün əsaslar*

PHŞ-nın əmlakı 16 Avqust 2019-cu il tarixdə yenidən qiymələndirilmişdir. Yenidən qiymətləndirmə hesabatı üzrə PHŞ-nın əmlak, tikili və avadanlıqlarının ədalətli dəyəri düzgün müəyyən edilməmişdir. Bu qiymətləndirmənin nəticəsinin konsolidə edilmiş maliyyə hesabatlarına təsirləri müəyyən edilə bilinməmişdir.

Konsolidə edilmiş maliyyə hesabatlarınıda digər kapital rəqəminin açılışını əldə etmək mümkün olmamışdır. Bunun maliyyə hesabatlarına təsirini qiymətləndirmək mümkün olmamışdır.

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq PHŞ-dən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Crowe

***Digər məsələ***

PHŞ-nın 31 Dekabr 2019-cu il tarixdə bitən il üzrə konsolidə edilmiş maliyyə hesabatları başqa auditor tərəfindən audit olunmuşdur və auditor həmin konsolidə edilmiş maliyyə hesabatlarına müsbət rəy ifadə etmişdir.

***Konsolidə edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

***Konsolidə edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti (davamı)***

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik PHŞ-nı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik PHŞ-nın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər PHŞ-nın konsolidə edilmiş maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**Tarix:** 22 dekabr 2021-ci il

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti ABAK-AZ CROWE LTD Limited Liability Company Azerbaijan Republic

**İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ**
**BAKI, AZƏRBAYCAN RESPUBLİKASI**

## KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

**31 Dekabr 2020-ci il tarixinə**
***(Azərbaycan manatı ilə)***

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Qısamüddətli aktivlər:*** | | | |
| Pul vəsaitləri və onun ekvivalentləri | 5 | **106 650** | 370 685 |
| Debitor borcları | 6 | **869 333** | 1 100 416 |
| Digər debitorlar və avanslar | 7 | **2 191 068** | 136 711 |
| Mal-material ehtiyatları | 8 | **347 351** | 782 781 |
| | | **3 514 402** | 2 390 593 |
| ***Uzunmüddətli aktivlər:*** | | | |
| Qeyri-maddi aktivlər | 9 | **92 474** | 129 143 |
| Əmlak, tikili və avadanlıqlar | 10 | **164 070 471** | 13 027 598 |
| Digər maliyyə aktivləri | | **1 910 808** | 1 943 678 |
| Bitməmiş tikinti işləri | 11 | **22 941 859** | 19 788 715 |
| | | **189 015 611** | 34 889 134 |
| **CƏMİ AKTİVLƏR** | | **192 530 013** | 37 279 727 |
| **KAPİTAL və ÖHDƏLİKLƏR** | | | |
| ***Qısamüddətli öhdəliklər:*** | | | |
| Kreditor borcları | 13 | **8 412 334** | 364 750 |
| Sair öhdəliklər | 14 | **-** | 189 |
| Bank kreditləri üzrə öhdəliklər | 15 | **395 000** | - |
| | | **8 807 334** | 364 939 |
| ***Uzunmüddətli öhdəliklər:*** | | | |
| Sair öhdəliklər | | **378 026** | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **378 026** | - |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **9 185 360** | 364 939 |
| ***Səhmdar kapitalı:*** | | | |
| Nizamnamə kapitalı | 12 | **1 000 000** | 1 000 000 |
| Yenidənqiymətləndirmə ehtiyatı | | **151 181 352** | - |
| Əlavə kapital | | **34 928 479** | 37 971 638 |
| Bölüşdürülməmiş mənfəət | | **(3 765 179)** | (2 056 850) |
| **Cəmi səhmdar kapitalı** | | **183 344 653** | 36 914 788 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **192 530 013** | 37 279 727 |

Konsolidə edilmiş maliyyə hesabatları 22 dekabr 2021-ci il tarixdə təsdiq edilmiş və imzalanmışdır:

**İdarə Heyətinin Sədri** | **Maliyyə şöbəsinin müdiri**

**İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ**
**BAKI, AZƏRBAYCAN RESPUBLİKASI**

**KONSOLİDƏ EDİLMİŞ MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 Dekabr 2020-ci il tarixdə bitən il üzrə**
***(Azərbaycan manatı ilə)***

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 16 | **1 119 938** | 5 272 923 |
| Sair əməliyyat gəlirləri | 17 | **2 186 628** | 9 150 774 |
| ***Xalis gəlirlər*** | | **3 306 566** | 14 423 697 |
| İnsan resursları üzrə xərclər | 18 | **(3 116 998)** | (6 727 273) |
| Amortizasiya və köhnəlmə xərcləri | 19 | **(1 106 393)** | (1 148 873) |
| Fəaliyyət üzrə xərclər | 20 | **(700 958)** | (7 312 450) |
| Sair xərclər | 21 | **(86 618)** | (249 270) |
| ***Vergidən əvvəl mənfəət*** | | **(1 704 402)** | (1 014 169) |
| Mənfəət vergisi xərci | | **(3 926)** | (31 121) |
| ***Dövr ərzində xalis mənfəət*** | | **(1 708 329)** | (1 045 290) |
| Digər məcmu gəlirlər | | **-** | - |
| **Dövr üzrə cəmi məcmu gəlirlər** | | **(1 708 329)** | (1 045 290) |

Konsolidə edilmiş maliyyə hesabatları 22 dekabr 2021-ci il tarixdə təsdiq edilmiş və imzalanmışdır:

**İdarə Heyətinin Sədri**

**Maliyyə şöbəsinin müdiri**

**İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ**
**BAKI, AZƏRBAYCAN RESPUBLİKASI**

## KONSOLİDƏ EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

**31 Dekabr 2020-ci il tarixdə bitən il üzrə**
**(Azərbaycan manatı ilə)**

| | Nizamnamə kapitalı | Digər kapital | Yenidənqiymətləndirmə ehtiyatı | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|---|
| 1 yanvar 2019-cu il tarixə | - | 15 354 138 | - | (1 011 560) | 14 342 578 |
| *Səhmdar kapitalında dəyişikliklər:* | | | | | |
| Səhmdar kapitalında artım/(azalma) | - | 4 266 435 | | - | 4 266 435 |
| Digər kapitalda artım | - | 21 583 902 | | - | 21 583 902 |
| Kapital maddələri arasında hərəkət | 1 000 000 | (3 232 837) | | | (2 232 837) |
| **İl ərzində məcmu gəlirlər:** | | | | | |
| *Dövr ərzində xalis mənfəət* | | - | | *(1 045 290)* | *(1 045 290)* |
| **Dövr üzrə cəmi məcmu gəlirlər** | - | - | | (1 045 290) | (1 045 290) |
| **31 Dekabr 2019-cu il tarixə** | **1 000 000** | **37 971 638** | **-** | **(2 056 850)** | **36 914 788** |
| *Səhmdar kapitalında dəyişikliklər:* | | | | | |
| Səhmdar kapitalında artım/(azalma) | | - | | - | - |
| Digər kapitalda azalma | - | (3 043 159) | 151 181 352 | - | 148 138 194 |
| Yenidənqiymətləndirmə | - | - | | | - |
| **İl ərzində məcmu gəlirlər:** | | | | | |
| *Dövr ərzində xalis mənfəət* | - | - | | *(1 708 329)* | *(1 708 329)* |
| **Dövr üzrə cəmi məcmu gəlirlər** | - | - | | **(1 708 329)** | **(1 708 329)** |
| **31 Dekabr 2020-ci il tarixə** | **1 000 000** | **34 928 479** | **151 181 352** | **(3 765 179)** | **183 344 653** |

**İdarə Heyətinin Sədri** **Maliyyə şöbəsinin müdiri**

Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir.

**İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ**
**BAKI, AZƏRBAYCAN RESPUBLİKASI**
**KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 Dekabr 2020-ci il tarixdə bitən il üzrə**
***(Azərbaycan manatı ilə)***

| | 2020 | 2019 |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitləri:** | | |
| Vergidən əvvəl mənfəət | **(1 704 402)** | (1 014 169) |
| ***Qeyri-pul maddələri üzrə düzəlişlər*** | | |
| Qeyri-maddi aktivlərin köhnəlməsi | **8 378** | |
| Əmlak və avadanlıqların dəyərinə düzəliş | **(480 765)** | - |
| Əmlak və avadanlıqların amortizasiyası | **1 098 015** | 1 148 873 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat mənfəəti** | **(1 078 774)** | 134 704 |
| Debitor borcları | **231 083** | 1 094 867 |
| Digər debitorlar və avanslar | **(2 054 357)** | 8 835 663 |
| Mal-material ehtiyatları | **435 430** | 45 429 |
| Kreditor borcları | **8 047 584** | (309 046) |
| Sair öhdəliklər | **(189)** | 189 |
| Təxirə salınmış gəlirlər | **-** | (10 181 508) |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitləri** | **5 580 777** | (379 702) |
| Ödənilmiş mənfəət vergisi | **(3 926)** | (31 121) |
| ***Əməliyyat fəaliyyətindən xalis pul vəsaitləri*** | **5 576 851** | (410 823) |
| **Investisiya fəaliyyətindən pul vəsaitləri** | | |
| Əmlak və avadanlıqların alınması | **(323 124)** | (1 435 156) |
| Bitməmiş tikinti işlərində artım | **(3 153 144)** | (19 788 715) |
| Qeyri-maddi aktivlərin satışından daxilolmalar | **-** | 367 214 |
| Qeyri-maddi aktivlərin alınması | **3 804** | (66 141) |
| ***İnvestisiya fəaliyyətində istifadə xalis pul vəsaitləri*** | **(3 472 464)** | (20 922 798) |
| **Maliyyə fəaliyyətindən pul vəsaitləri** | | |
| Səhmdar kapitalında artım | **-** | 1 000 000 |
| Bank kreditləri | **395 000** | |
| Sair qısamüddətli maliyyə aktivləri | | 21 583 902 |
| Kapitalın artması nəticəsində yaranan pul vəsaitlərindən daxilolmalar | **(2 763 422)** | 1 033 598 |
| Dividendlərin ödənilməsi üzrə yaranan pul vəsaitlərindən daxilolmalar | **-** | (1 943 678) |
| ***Maliyyə fəaliyyətindən xalis pul vəsaitləri*** | **(2 368 422)** | 21 673 822 |
| ***Pul vəsaitləri və onun ekvivalentlərində xalis artım*** | **(264 035)** | 340 201 |
| Pul vəsaitləri və onun ekvivalentrləri, ilin əvvəlinə | **370 685** | 30 484 |
| Pul vəsaitləri və onun ekvivalentrləri, ilin sonuna | **106 650** | 370 685 |

Qeydlər bu maliyyə hesabatlarının tərkib hissəsidir..